Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu

# HƏFTƏLİK BÜLLETEN №18[1]

**Azərbaycanda COVID-19**

**26 Oktyabr-1 Noyabr 2020 üzrə mühüm faktlar və qərarlar**

## 1. COVID-19: ölkə üzrə statistika

**1 noyabr 2020-ci il:** Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumata[2] əsasən həmin gün 1175 nəfər yeni növ koronavirus infeksiyasına yoluxmuş, 10 nəfər vəfat etmişdir. Beləliklə, pandemiyanın başlanğıcından bu günədək COVID-19 xəstəliyinə yoluxanların ümumi sayı 56444 nəfərə çatmış, bunlardan 41279 nəfəri sağalmış, 740 nəfəri vəfat etmişdir. Hal-hazırda, 11547 aktiv xəstə mövcuddur. İndiyədək yoluxmanın müəyyən edilməsi məqsədilə keçirilmiş ümumi testlərin sayı 1363539 təşkil edir.

## 2. Mühüm qərarlar

**28 oktyabr 2020-ci il:** Xüsusi karantin rejiminin müddətinin uzadılması[3]

Nazirlər Kabineti qərara alır:

Xüsusi karantin rejiminin müddəti 2020-ci il 1 dekabr saat 06:00-dək uzadılır. Gəncə, Yevlax, Mingəçevir, Lənkəran, Şəki, Şirvan şəhərlərində və Göygöl, Samux, Sabirabad, Quba, Ağstafa, Biləsuvar, Xaçmaz, İsmayıllı, Qax, Zaqatala, Cəlilabad, Masallı rayonlarında 7 noyabr saat 00:00-dan 9 noyabr saat 06:00-dək, 2 14 noyabr saat 00:00-dan 16 noyabr saat 06:00-dək, 21 noyabr saat 00:00-dan 23 noyabr saat 06:00-dək və 28 noyabr saat 00:00-dan 30 noyabr saat 06:00-dək ictimai nəqliyyatın hərəkətinin dayandırılır.

## 3. Sahibkarların diqqətinə

**29 oktyabr 2020-ci il:** Zəruri qayda və tələblərə əməl etməyən sahibkarlıq subyektləri barədə tədbirlər görülüb[4]

İqtisadiyyat Nazirliyinin sahibkarlıq subyektlərində oktyabrın 29-da keçirdiyi monitorinqlər zamanı 79 obyektdə epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena tələblərinin pozulduğu müəyyən edilib.

*Bakı, 2 noyabr 2020*

---

[1] Bülleten USAID tərəfindən dəstəklənən "Kiçik Sahibkarlığın İnkişafına Dəstək Layihəsi" çərçivəsində hazırlanır.

[2] https://koronavirusinfo.az/files/3/tab_01.11.2020.pdf

[3] https://nk.gov.az/az/document/4885/

[4] https://www.economy.gov.az/article/zeruri-qayda-ve-teleblere-emel-etmeyen-sahibkarliq-subyektleri-barede-tedbirler-gorulub/31362